## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli 633s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 sentyabr tarixli 1192 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə, habelə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər üzrə icraçı orqanlarla (qurumlarla) razılaşdırılmış təklifinə əsasən:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli 633s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.1-ci bənd üzrə:

1.1.1. 8.1.5-ci yarımbənd ləğv edilsin;

1.1.2. 8.1.6.1.1-ci və 8.1.6.1.2-ci abzaslar ləğv edilsin;

1.1.3. 8.1.6.1.3-cü abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2026" rəqəmləri ilə əvəz edilsin;

1.2. 8.2.1-ci, 8.2.2-ci və 8.2.3-cü yarımbəndlər ləğv edilsin;

1.3. 8.3-cü bənd üzrə:

1.3.1. 8.3.1.2.1-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Sənaye parkının layihələndirilməsi tədbirlərinin davam etdirilməsi";

1.3.2. 8.3.1.2.2-ci abzasda "İcra müddəti" sütununda "2027" rəqəmləri "2026–2027" rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Sənaye parkının inşası və rezident qəbuluna başlanılması";

1.3.3 8.3.3.1.2-ci abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2026" rəqəmləri ilə əvəz edilsin;

1.3.4. 8.3.5.2.1-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların təşviq edilməsi";

1.4. 8.4-cü bənd üzrə:

1.4.1. aşağıdakı məzmunda 8.4.2.4-cü abzas əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.4.2.4. | Naxçıvan Muxtar Respublikasının ərazisində heyvan xəstəliklərindən azad zonanın yaradılması və fəaliyyətinin təşkili | NMR NK | KTN, AQTA | aralıq nəticə | 2026–2027 |

1.4.2. 8.4.3-cü yarımbənd ləğv edilsin;

1.4.3. 8.4.5.3-cü abzas aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.4.5.3. | Aqrar istehsalın inkişafı nəticəsində kənd təsərrüfatı istehsalçılarının gəlir imkanlarının genişləndirilməsi | KTN | NMR NK, İN | yekun nəticə | 2027 |

1.4.4. 8.4.5.3.1-ci abzas ləğv edilsin;

1.4.5. 8.4.7.2.1-ci abzasın "İcra müddəti" sütununda "2026" rəqəmləri "2026–2027" rəqəmləri ilə əvəz edilsin;

1.5. 8.5-ci bənd üzrə:

1.5.1. 8.5.1.1.2-ci abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2026" rəqəmləri ilə əvəz edilsin;

1.5.2. 8.5.1.2.1-ci, 8.5.2.1.1-ci, 8.5.2.1.4-cü, 8.5.2.1.6-cı, 8.5.2.2.6-cı, 8.5.2.2.7-ci, 8.5.2.2.8-ci abzaslar və 8.5.4-cü yarımbənd ləğv edilsin;

1.5.3. aşağıdakı məzmunda 8.5.2.1.7-ci abzas əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.5.2.1.7. | Batabat Astrofizika Rəsədxanası üçün tematik turistik mərkəzin | NMR NK | DTA, ETN | ilkin nəticə-alt | 2026 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | layihələndirilməsi | | | | |

1.5.4. 8.5.2.2.2-ci abzasın “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin;

1.5.5. 8.5.2.2.9-cu və 8.5.2.2.10-cu abzasların “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.6. 8.6-cı bənd üzrə:

1.6.1. 8.6.3.2.1-ci abzas ləğv edilsin;

1.6.2. 8.6.3.2.2-ci abzas aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.6.3.2.2. | 110/35/10 kV-luq “Çeşməbasar” yarımstansiyasının yenidən qurulması istiqamətində işlərin davam etdirilməsi | “Azərenerji” ASC | EN, NMR NK | aralıq nəticə-alt | 2025–2026 |

1.6.3. 8.6.3.2.3-cü abzasda təfsilatlı tədbirin adından “35/10 kV-luq “Sədərək”,” sözləri çıxarılsın;

1.6.4. 8.6.4.2.2-ci və 8.6.6.1.1-ci abzasların “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.6.5. 8.6.4.2.3-cü abzasın “İcra müddəti” sütununda “2026” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin;

1.6.6. 8.6.6.2.1-ci abzasın “İcra müddəti” sütununda “2025–2027” rəqəmləri “2027” rəqəmləri ilə əvəz edilsin;

1.6.7. 8.6.9.1.2-ci abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2026” rəqəmləri ilə əvəz edilsin;

1.7. 8.7-ci bənd üzrə:

1.7.1. 8.7.1.2.2-ci abzasın “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.7.2. 8.7.1.2.3-cü, 8.7.9.2.2-ci, 8.7.9.2.3-cü, 8.7.9.2.5-ci, 8.7.9.2.6-cı, 8.7.9.2.8-ci, 8.7.9.2.11-ci, 8.7.9.2.12-ci və 8.7.9.2.13-cü abzaslar ləğv edilsin;

1.7.3. 8.7.3.1.2-ci abzasın “Əsas icraçı” sütununda “RİNN” akronimi “NMR NK” akronimi ilə, “Digər icraçılar” sütununda “NMR NK” akronimi “RİNN” akronimi ilə əvəz edilsin;

1.7.4. 8.7.5.1.1-ci və 8.7.9.2.4-cü abzasların “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2026” rəqəmləri ilə əvəz edilsin;

1.7.5. 8.7.5.1.4-cü abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikasının yerli əhəmiyyətli avtomobil yollarının, şəhər və kəndlərinin daxili avtomobil yollarının yenidən qurulmasının və abadlaşdırılmasının layihələndirilməsi”;

1.7.6. 8.7.5.2.3-cü abzas aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.7.5.2.3. | Naxçıvan Muxtar Respublikasının ictimai nəqliyyat parkının və infrastrukturunun yenilənməsi | AZCON | RİNN, NMR NK | aralıq nəticə-alt | 2025–2027 |

1.7.7. 8.7.5.2.5-ci abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.7.8. 8.7.5.3-cü abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikasında əhalinin nəqliyyat infrastrukturuna və nəqliyyat xidmətlərinə əlçatanlığının artırılması”;

1.7.9. 8.7.5.3.1-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Əhalinin ictimai nəqliyyata, avtomobil yollarına və nəqliyyat xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması və nəqliyyat xidmətlərindən istifadənin artırılması”;

1.7.10. 8.7.6-cı yarımbənd ləğv edilsin;

1.7.11. 8.7.9.1.10-cu abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.7.12. 8.7.9.1.11-ci abzasın “İcra müddəti” sütununda “2026” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin;

1.7.13. 8.7.9.2.9-cu abzasın “İcra müddəti” sütununda “2025-2026” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Arpaçay sağ sahil və sol sahil magistral kanallarının müəyyən edilən hissələrinin yenidən qurulması”;

1.7.14. 8.7.9.2.10-cu abzasın “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.8. 8.8-ci bənd üzrə:

1.8.1. 8.8.2-ci yarımbəndin adı aşağıdakı redaksiyada verilsin:

“Təhsil müəssisələrinin əhatə dairəsinin genişləndirilməsi”;

1.8.2. 8.8.2.2-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Yeni təhsil müəssisələrinin inşası, təchizatı və fəaliyyətinin təşkil edilməsi”;

1.8.3. 8.8.2.2.3-cü abzasın “İcra müddəti” sütununda “2026” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Mövcud məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının zənginləşdirilməsi”;

1.8.4. 8.8.2.2.4-cü abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Təhsil müəssisələrinin daxilində olan istilik sistemlərinin (qazanxanaların) binadan kənara çıxarılması və ya alternativ istilik sistemi ilə əvəz olunması”;

1.8.5. aşağıdakı məzmunda 8.8.2.2.5-ci və 8.8.2.2.6-cı abzaslar əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.8.2.2.5. | Məktəbəqədər təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi və yeni binaların tikintisi ilə bağlı layihə sənədlərinin hazırlanması | NMR NK | ETN | aralıq nəticə-alt | 2026 |
| 8.8.2.2.6. | Məktəbəqədər təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi və yeni binaların tikintisi | NMR NK | ETN | aralıq nəticə-alt | 2026–2027 |

1.8.6. 8.8.2.3-cü abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Təhsil imkanlarının genişləndirilməsi”;

1.8.7. aşağıdakı məzmunda 8.8.3.2-ci, 8.8.3.2.2-ci və 8.8.3.2.3-cü abzaslar əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.8.3.2. | Müvafiq sahədə tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi | | | aralıq nəticə | |
| 8.8.3.2.2. | Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətinin təmin edilməsi üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin inzibati binasının əsaslı təmirinin layihələndirilməsi | NMR NK | ƏƏSMN | aralıq nəticə-alt | 2026 |
| 8.8.3.2.3. | Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətinin təmin edilməsi üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin inzibati binasının əsaslı təmiri və maddi- | NMR NK | ƏƏSMN | aralıq nəticə-alt | 2026–2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | texniki bazanın yenilənməsi | | | | |

1.8.8. 8.8.3.3-cü abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Sosial cəhətdən həssas əhali qruplarının sosial xidmətlərlə əhatə olunmasının genişləndirilməsi”;

1.8.9. 8.8.4.2.3-cü abzasın “Digər icraçılar” sütunundan “GİN” akronimi çıxarılsın və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikasının şəhər və qəsəbələrinin abadlaşdırılması, parkların yenidən qurulması”;

1.8.10. aşağıdakı məzmunda 8.8.4.2.4-cü və 8.8.4.2.5-ci abzaslar əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.8.4.2.4. | Seçilmiş ərazilərdə minifutbol meydançasının tikintisinin və açıq hava idman qurğularının quraşdırılmasının layihə smeta sənədlərinin hazırlanması | NMR NK | GİN | aralıq nəticə-alt | 2026 |
| 8.8.4.2.5. | Seçilmiş ərazilərdə minifutbol meydançasının tikintisi və açıq hava idman qurğularının quraşdırılması | NMR NK | GİN | aralıq nəticə-alt | 2026–2027 |

1.8.11. 8.8.4.3-cü abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:
“Əhalinin fiziki fəallığının artırılması üçün şəraitin yaxşılaşdırılması”;

1.8.12. 8.8.5.2.2-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Özəl təhsil müəssisəsinin yaradılması istiqamətində təşviq tədbirinin davam etdirilməsi”;

1.8.13. 8.8.5.3.1-ci abzas ləğv edilsin;

1.9. 8.9-cu bənd üzrə:

1.9.1. 8.9.1.3-cü abzas aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.9.1.3. | Əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artırılması | | | yekun nəticə | |

1.9.2. aşağıdakı məzmunda 8.9.1.3.1-ci abzas əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.9.1.3.1. | Peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması | NMR NK, ETN | | yekun nəticə-alt | 2026–2027 |

1.9.3. 8.9.2.2.11-ci, 8.9.2.2.16-cı, 8.9.2.2.17-ci, 8.9.4.2.3-cü, 8.9.4.2.4-cü, 8.9.4.2.5-ci, 8.9.4.2.9-cu, 8.9.9.2.4-cü və 8.9.9.2.5-ci abzaslar ləğv edilsin;

1.9.4. aşağıdakı məzmunda 8.9.2.3-cü abzas əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.9.2.3. | Orta təhsilin keyfiyyət göstəricilərinin artırılması | ETN | NMR NK | yekun nəticə | 2027 |

1.9.5. 8.9.4.1.3-cü abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Universitetin tibb fakültəsinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması";

1.9.6. 8.9.4.2.2-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Universitetin tibb fakültəsinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi";

1.9.7. 8.9.4.2.6-cı abzasın "İcra müddəti" sütununda "2025–2026" rəqəmləri "2025–2027" rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Tibbi Tədqiqat Klinikasının layihələndirilməsi və inşası";

1.9.8. 8.9.4.2.7-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Tələbə yataqxanasının, dəvətli professorlar üçün qonaq evinin layihələndirilməsi və inşası";

1.9.9. 8.9.4.2.10-cu abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2027" rəqəmləri ilə əvəz edilsin;

1.9.10. 8.9.7.2.2-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Proqramların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi üçün müvafiq işlərin davam etdirilməsi";

1.9.11. 8.9.9.1.2-ci abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2026" rəqəmləri ilə əvəz edilsin;

1.10. 8.10-cu bənd üzrə:

1.10.1. 8.10.2.1.1-ci abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2027" rəqəmləri ilə, həmin abzasın "Əsas icraçı" sütununda "MdN" akronimi "NMR NK" akronimi ilə, "Digər icraçılar" sütununda "NMR NK" akronimi "MdN" akronimi ilə əvəz edilsin;

1.10.2. aşağıdakı məzmunda 8.10.2.1.5-ci abzas əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.10.2.1.5. | Naxçıvan şəhərində muzey mərkəzinin tikintisinin layihələləndirilməsi ilə bağlı işlərin davam etdirilməsi | NMR NK | MdN | ilkin nəticə-alt | 2026 |

1.10.3. 8.10.2.1.7-ci, 8.10.2.2.9-cu, 8.10.3.2.4-cü, 8.10.3.2.5-ci, 8.10.3.3-cü, 8.10.5.1.5-ci, 8.10.5.1.7-ci, 8.10.5.2.2-ci, 8.10.5.2.4-cü, 8.10.5.2.5-ci, 8.10.5.2.6-cı, 8.10.5.2.8-ci, 8.10.5.2.9-cu, 8.10.5.2.10-cu, 8.10.11.2.1-ci, 8.10.11.2.2-ci, 8.10.11.2.3-cü, 8.10.11.2.6-cı, 8.10.11.2.7-ci, 8.10.11.2.8-ci, 8.10.11.3.1-ci və 8.10.11.3.4-cü abzaslar ləğv edilsin;

1.10.4. 8.10.2.1.8-ci abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2026" rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Dövlət Kukla Teatrı üçün müəyyən olunmuş binanın əsaslı təmir edilməsi və maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı layihə sənədlərinin hazırlanması";

1.10.5. 8.10.2.1.10-cu abzasın "İcra müddəti" sütununda "2025–2026" rəqəmləri "2025–2027" rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Ordubad Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki abidələrin bərpa-konservasiyası ilə bağlı konsepsiyanın hazırlanması və layihələndirmə işlərinin icrası";

1.10.6. 8.10.2.2.1-ci abzasın "İcra müddəti" sütununda "2026" rəqəmləri "2025–2027" rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan şəhərində yerləşən "Möminə xatun türbəsi" dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlərin görülməsi";

1.10.7. 8.10.2.2.10-cu abzasın "İcra müddəti" sütununda "2025–2026" rəqəmləri "2026–2027" rəqəmləri ilə əvəz edilsin və təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Dövlət Kukla Teatrı üçün müəyyən olunmuş binanın əsaslı təmir edilməsi və maddi-texniki bazasının gücləndirilməsi";

1.10.8. 8.10.2.2.11-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan şəhərində Media mərkəzinin fəaliyyətinin təşkili və maddi-texniki bazanın qurulması";

1.10.9. 8.10.2.2.17-ci abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2026" rəqəmləri ilə, həmin abzasın "Əsas icraçı" sütununda "MdN" akronimi "NMR NK" akronimi ilə, "Digər icraçılar" sütununda "NMR NK" akronimi "MdN" akronimi ilə əvəz edilsin;

1.10.10. 8.10.3.2.3-cü abzasın "İcra müddəti" sütununda "2025–2027" rəqəmləri "2026–2027" rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tətbiqi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət orqanları ilə birlikdə təsərrüfat subyektləri üçün maarifləndirmə tədbirlərinin təşkil edilməsi";

1.10.11. 8.10.3.2.6-cı abzasın "İcra müddəti" sütununda "2025–2027" rəqəmləri "2026–2027" rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Malın mənşə ölkəsini təsdiq edən sertifikatların verilməsi prosesinin Keyfiyyət İnformasiya

Sistemi vasitəsilə həyata keçirilməsinin təşkili”;

1.10.12. 8.10.3.2.7-ci abzasın “İcra müddəti” sütununda “2025–2027” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan Muxtar Respublikasında ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsi sahələrində fəaliyyət göstərən orqanlarda (qurumlarda) dövlət metroloji nəzarətin təşkil olunması”;

1.10.13. 8.10.3.2.8-ci abzasın “İcra müddəti” sütununda “2025–2027” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Akkreditasiya orqanı tərəfindən akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumların Naxçıvan Muxtar Respublikasında uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyətlərinin həyata keçirilməsində və bu sahədə yeni qurumların yaradılmasında maraqlı olan özəl biznes subyektlərinin maarifləndirilməsi”;

1.10.14. 8.10.4.2.5-ci abzasın “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Ailə mərkəzinin yaradılması və maddi-texniki bazanın qurulması”;

1.10.15. 8.10.4.2.6-cı abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrinə aid dövlət xidmətlərinin inkişafı və DOST Mərkəzinin rayonlarda filiallarının yaradılması istiqamətində işlərin görülməsi”;

1.10.16. 8.10.5.1.2-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Naxçıvan şəhərində yeni ailə sağlamlıq mərkəzinin layihələndirilməsi işlərinin başa çatdırılması”;

1.10.17. 8.10.5.1.6-cı abzasın “Digər icraçılar” sütunundan “İTSDA,” akronimi çıxarılsın və həmin abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2026” rəqəmləri ilə əvəz edilsin;

1.10.18. 8.10.5.2.11-ci abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.10.19. 8.10.7.1.1-ci abzasın “İcra müddəti” sütununda “2025” rəqəmləri “2026” rəqəmləri ilə əvəz edilsin;

1.10.20. 8.10.7.2.1-ci və 8.10.7.3.1-ci abzasların “İcra müddəti” sütununda “2025” rəqəmləri “2027” rəqəmləri ilə əvəz edilsin;

1.10.21. 8.10.7.2.2-ci abzasın “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2026–2027” rəqəmləri ilə əvəz edilsin;

1.10.22. 8.10.7.3.2-ci abzasın “İcra müddəti” sütununda “2026” rəqəmləri “2027” rəqəmləri ilə əvəz edilsin;

1.10.23. 8.10.13-cü yarımbənd ləğv edilsin;

1.11. 8.11-ci bənd üzrə:

1.11.1. 8.11.1.1.5-ci abzasın “İcra müddəti” sütununda “2025–2026” rəqəmləri “2025–2027” rəqəmləri ilə əvəz edilsin;

1.11.2. 8.11.1.1.6-cı, 8.11.1.2.1-ci, 8.11.2.1-ci, 8.11.2.2.1-ci, 8.11.2.3.1-ci və 8.11.3.2.3-cü abzaslar ləğv edilsin;

1.11.3. aşağıdakı məzmunda 8.11.1.2.3-cü, 8.11.1.2.4-cü və 8.11.2.2.2-ci abzaslar əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 8.11.1.2.3. | Duzdağ daş duz yatağında kompleks geoloji-kəşfiyyat işlərinin aparılması, ehtiyatı müəyyənləşdirilərək istismara verilməsi üçün müvafiq işlərin görülməsi | NMR NK | ETSN, İN | aralıq nəticə-alt | 2025–2027 |
| 8.11.1.2.4. | Naxçıvan Muxtar Respublikasının ərazisində yeraltı su ehtiyatlarının qiymətləndirilməsi ilə bağlı kompleks hidrogeoloji tədqiqat işlərinin aparılması | NMR NK | ETSN, ADSEA | aralıq nəticə-alt | 2025–2027 |
| 8.11.2.2.2. | Yaşıllaşdırma tədbirlərinin aparılması və yaşıllıq sahələrinə xidmət etmək üçün xüsusi təyinatlı maşın-mexanizmlərin alınması tədbirinin davam etdirilməsi | NMR NK | ETSN | aralıq nəticə-alt | 2026–2027 |

1.11.4. 8.11.2-ci yarımbəndin adı aşağıdakı redaksiyada verilsin:

“8.11.2. Yaşıllaşdırma işlərinin genişləndirilməsi, meşəsalma və meşəbərpa tədbirlərinin görülməsi”;

1.11.5. 8.11.2.2-ci abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Yaşıllaşdırma, meşəsalma və meşəbərpa işlərinin aparılması”;

1.11.6. 8.11.2.3-cü abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

“Yaşıllıq sahələrinin və meşə ilə örtülü ərazilərin artırılması”;

1.11.7. 8.11.6.2.1-ci abzasın "İcra müddəti" sütununda "2025–2026" rəqəmləri "2025–2027" rəqəmləri ilə əvəz edilsin və həmin abzasda təfsilatlı tədbirin adı aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasında mərkəzləşdirilmiş tullantı poliqonunun və bərk məişət tullantılarının idarə olunması, təkrar emal zavodunun və utilizasiya mərkəzinin yaradılması istiqamətində işlərin davam etdirilməsi";

1.11.8. 8.11.6.2.3-cü abzasın "İcra müddəti" sütununda "2025" rəqəmləri "2025–2027" rəqəmləri ilə və təfsilatlı tədbirin adında "mərkəzlərinin" sözü "mərkəzinin" sözü ilə əvəz edilsin;

1.12. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsindən "AZAL – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın və həmin hissəyə "AQTA – Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"AZCON – "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)".

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 25 " " sentyabr " 2026-cı il

№ 709s